# Gömrükçü dostuma məktub

***Poeziya insan qəlbinə təsir edə biləcək ən uğurlu vasitələrdən biridir. Poetik imkanlarına görə oxucunun varlığına sirayət edən müəlliflər həmişə yaddaşda olur, təqdir imkanları ilə fərqlənirlər.***

**Müəllifdən**

...Salam olsun sənə, gömrükçü qardaş,
Gərək səni bir az işdən ayıram.
Qəlbinə dəyanət, başına yaddaş,
İşində uğurlar arzulayıram.

Tanrının səsidir, dostluq naməsi,
Hər yerin bir göyü, bir səması var.
Qanunu, qaydası, əsasnaməsi,
Bilirəm, hər işin öz siması var.

Yağıya nifrəti sən qaytar geri,
Yurda sədaqəti buraxma gedə.
Saxlama günahı səhvdən betəri,
İnanma sonacan dura cərgədə.

Qoyma aparalar əhdi, ilqarı,
Saxla insanlığı, qoy getsin qərəz.
Axtarma surquclu bağlamaları,
Sən başları axtar, ürəkləri gəz.

Boşdusa, daşdısa, o başı burax,
Baş içində başı olanı saxla.
Yurdu kor qoyandan gətirmə soraq,
Vətən ağrısından öləni saxla.

Saxla ləyaqəti, abır, isməti,
Vecsizlər, düşkünlər ibrət alsınlar.
Tapşır ehtiramı, qədir-qiyməti,
Gömrükdən kənara buraxmasınlar.

Aqillər, müdriklər bir-bir çəkilsə,
Bir düşün, məmləkət nə günə düşər?
Təmkin üz çevirsə, dözüm əkilsə,
Neyləyər acizlər, dəymədüşərlər?

Yaltaqlar yenilib atından ensə,
Millət boy göstərər öz doğrusundan.
Üstündü müdriklər bir kəlmə dinsə,
Milyonlar sahibi söz oğrusundan.

Dilə tut gömrükdə binə salmağa,
İnsanlıq adına yaraşanları.
Qaytarma təzədən viza almağa,
Ləngitmə yalançı şöhrət-şanları.

Göz-qulaq ol, küsüb getməsin Vətən,
Ruhu uçub getsə, neylərəm canı?
Əmanət qədrini bilməz hər ötən
Sən saxla, sən saxla Azərbaycanı.

Gömrük işçisinə bir təzə yaddaş –
Olsaydı qeydlərə nöqtə qoyardım.
Hələlik çox sağ ol, gömrükçü qardaş,
Bağışla, mən səni işdən ayırdım.

*Əli Rza* Xələfli

***2015***